Azad Azərbaycan



26 noyabr / 2020

# Masallının Vətən sevdalı qəhrəman oğlu



**Vətənini, xalqını ürəkdən sevən, namuslu, vicdanlı insanlar lap uşaq yaşlarında bilinirlər. Fəqət onların yaşına uyuşmayan təmkini, cəmiyyətdə sanballı davranışı, xeyirxah əməllərə can atması adama çox şey deyir. Masallı rayonunun Rüdəkənar kəndində dünyaya göz açmış Arzuman Mirzəli oğlu Qurbanovda belə. O, doğulan gündən mərdlik, insanpərvərlik, torpaq yanğısı, yurd təəssübkeşliyi Uca Tanrı tərəfindən onun taleyinə yazılmışdı. Həyat kredosu yalnız doğma yurduna gərək olmaq, vətəninə fayda vermək idi. Məhz 19 yaşında vətən torpaqlarının azadlığı uğrunda şirin canından keçməsi də bu saf arzulardan yaranmışdı.**

Doğrudur, Masallı yurdunun vətən sevdalı oğlu Arzuman gözəl dünya yaratmaqla ömür payına dəyər qatmaq istəyirdi. Amma mənfur erməni dığaların Qarabağ torpaqlarına qanlı təcavüzü xalqına, vətəninə ilahi sevgidən yaranan arzularını yarımçıq qoyur. Ən azı dığaların Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin təşkilinə ürəyi heç cür dözə bilmir. Odur ki, 1992-ci ildə əlinə silah götürüb ön cəbhədə yağı düşmənlə müharibəyə qalxır. Və "Müqəddəs vətən torpağı azad olmamış silahı yerə qoymaram"- deyə and içir.

Arzuman düşmənə qarşı çıxdığı gündən onun cəsurluğu, igidliyi, mərdliyi bilinir. Bir-birindən çətin, qeyri-bərabər döyüşlərdə ölümün gözünə dik baxan Arzuman dığalara sarsıdıcı zərbələr vurmaqla tanınır. Düşdüyü müharibə meydanında düşməni məğlub etmək üçün son nəfəsə qədər vuruşmağa hazır olur. Hər dəfə erməni faşistlərin qətlinə bir cəngavər kimi gedir. Elə onun bu keyfiyyətləri düşməni yandırıb-yaxır. Arzumanın bu dəyanəti, qüruru əsgər dostları arasında isə ona böyük inam, hörmət gətirir...

**Arzuman 1993-ci ildə Ergiz bölgəsində gedən müharibənin ağır, qızğın yerində əbədiyyətin ən uca əlçatmaz zirvəsinə ucalmaqla, vətənin, millətin qürur yerinə çevrilir. Vətən oğlunun torpaqla bağlı arzuları Şanlı Ordumuz tərəfindən indi layaqətlə həyata keçirilir. Addım-addım cənnət-məkan Qarabağımız Rəşadətli Ordumuzun hünəri sayəsində düşmən tapdağından azad olundu. Bu tarixi zəfərə görə şəhidlik zirvəsindən parlaq gələcəyə doğru boylanan 46 yaşlı Arzumanın müqəddəs ruhu da rahatlıq tapır.**

**Zəfər ORUCOĞLU**